# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədlərinə ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi haqqında" 1993-cü il 8 yanvar tarixli 9 nömrəli, "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydalarının" təsdiq olunması haqqında" 1994-cü il 15 yanvar tarixli 10 nömrəli və "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2008-ci il 29 fevral tarixli 59 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

"Hərbi qulluqçuların statusu haqqında", "Dini etiqad azadlığı haqqında", "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Daxili qoşunların statusu haqqında", "Veteranlar haqqında", "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında", "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında", "Torpaq islahatı haqqında", "Sosial sığorta haqqında", "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və "Xidməti və mülki silah haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 19 may tarixli 108-VIQD nömrəli Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xəstəlik vərəqələrinin verilməsi və müalicə-sağlamlıq məqsədlərinə ödənişlərin təyin edilməsi və verilməsi qaydalarının təsdiqi

haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 8 yanvar tarixli 9 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. adında və 2-ci hissəsində “məqsədlərinə” sözü “məqsədləri üçün” sözləri ilə əvəz edilsin;

1.2. həmin Qərara 2 nömrəli əlavə - “Sosial sığorta haqları ödəyən vətəndaşlara xəstəlik vərəqələrinin verilməsi qaydası haqqında Təlimat” üzrə:

1.2.1. 6-cı hissə üzrə:

1. birinci abzasda “əlillik və ya sağlamlıq imkanlarının məhdudluğu təyin edilən” sözləri “əlillik müəyyən edilən” sözləri ilə əvəz edilsin;

2. üçüncü abzasın dördüncü cümləsində “əlil və ya sağlamlıq imkanlarının məhdudluğunun” sözləri “əlilliyi olan şəxs” sözləri ilə əvəz edilsin;

1.2.2. 13-cü hissənin ikinci abzasında “əlillik və ya sağlamlıq imkanlarının məhdudluğunun” sözləri “əlilliyin” sözü ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları”nın 2.1.3-cü yarımbəndində “əlil” sözü “əlilliyi olan” sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 2, maddə 134; 2010, № 1, maddə 59; 2012, № 12, maddə 1371; 2013, № 10, maddə 1204, № 12, maddə 1627; 2015, № 5, maddə 659; 2016, № 9, maddə 1585; 2017, № 4, maddələr 620, 643, № 7, maddə 1501, № 12 (II kitab), maddə 2484; 2020, № 4, maddə 496) ilə təsdiq edilmiş “Hərbi-həkim ekspertizası haqqında Əsasnamə”nin 7.1-ci bəndinin “c” abzasında “vətəndaşda əlillik təyin” sözləri “vətəndaşın əlilliyi müəyyən” sözləri ilə əvəz edilsin.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş Naziri**

Bakı şəhəri, 21 oktyabr 2020-ci il

№ 407